AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASI



# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA ELMİN İNKİŞAFI

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ
HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ
93-CÜ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ
ELMİ KONFRANS

## PROQRAM

6 may 2016-cı il

Bakı-2016

XALQ QƏZETİ 7 may 2016-cı il, şənbə

# "Heydər Əliyev və Azərbaycanda elmin inkişafı" mövzusunda konfrans keçirilib

***Mayın 6-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında (AAK) Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş "Heydər Əliyev və Azərbaycanda elmin inkişafı" mövzusunda elmi konfrans keçirilib.***

Komissiyadan bildiriblər ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Elmi konfransda "Azərbaycanda elmi kadrların hazırlanmasında Heydər Əliyevin rolu", "Heydər Əliyev və elmi-texniki tərəqqi", "Heydər Əliyev və Azərbaycanda demokratik dövlətçiliyin elmi əsasları" mövzularında məruzələr dinlənilib. Məruzəçilər Azərbaycan Respublikasında elmin inkişafında, elmi kadrların, o cümlədən yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanmasında və attestasiyasında, respublikamızın elmi potensialının formalaşması və gücləndirilməsində, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiq imkanlarının genişləndirilməsində, demokratik dövlətçiliyimizin elmi əsaslar üzərində qurulmasında, azərbaycançılıq məfkurəsinin möhkəmlənməsində, güclü iqtisadiyyatımızın qurulmasında ulu öndər Heydər Əliyevin müstəsna və misilsiz xidmətlərindən danışıblar.

Daha sonra məruzələr ətrafında çıxış edənlər bildiriblər ki, ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi istər birinci, istərsə də ikinci dövrdə elm çox intensiv inkişaf edib, respublikamızda güclü elmi kadr potensialı formalaşıb.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev respublikamızda elmin və texnikanın inkişafına hər zaman hərtərəfli diqqət və qayğı göstərib və bu ənənələr hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

**AZƏRTAC**